LAWELS

# VERGİ VƏ SOSİAL SIĞORTA QANUNVERİCİLİYİNƏ EDİLƏN MÜHÜM DƏYİŞİKLİKLƏRİN XÜLASƏSİ

*Xüsusi buraxılış -I, 05 iyun, 2020-ci il*

*LAWELS bloqunun Qanunvericilik yenilikləri buraxılışları Azərbaycan Respublikası qanunvericiliyinə edilən dəyişikliklər və digər yeniliklərin aylıq icmalı üzrə cari və xüsusi buraxılışları ehtiva edir.*

| Ana səhifə | Bütün buraxılışlar | Bizimlə əlaqə |
|---|---|---|

**Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilərək pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarliq subyektlərinə (o cümlədən, kiçik və orta sahibkarliğa) vergi güzəştləri və tətilləri mexanizmi müəyyənləşdirilmişdir**

Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən, pandemiyadan zərər çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərinin verilməsi müəyyən edilib.

2 iyun 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 8 may 2020-ci il tarixli Qanun təsdiq edildi.

*Dəyişikliklər aşağıdakıları əhatə edir:*

– **yeni anlayışlar və əvvəlki anlayışlar üzrə düzəlişlər;**
– **müxtəlif vergi rejimlərində çalışan vergi ödəyiciləri üçün vergi güzəştləri**
– **koronavirus pandemiyasının təsir etdiyi sahələrdə fəaliyyət göstərən vergi ödəyiciləri üçün digər güzəştlər**
– **mikro sahibkarlara vergi güzəştləri**
– **bütün sahibkarlara aid güzəştlər**
– **idxal sahəsində vergi güzəştləri**

- **Yeni anlayışlar və əvvəlki anlayışlar üzrə düzəlişlər**

Dəyişikliyə əsasən, *xüsusi vergi rejimi ilə yanaşı müvəqqəti vergi rejimi* tətbiq edilə bilər:

| Əvvəlki versiya | Dəyişiklikdən sonra |
|---|---|
| 4.5. Azərbaycan Respublikasında bu Məcəlləyə uyğun olaraq xüsusi vergi rejimi tətbiq edilə bilər. | 4.5. Azərbaycan Respublikasında bu Məcəlləyə uyğun olaraq xüsusi və müvəqqəti vergi rejimləri tətbiq edilə bilər. |

*Müvəqqəti vergi rejimi* anlayışı Vergi Məcəlləsinin 4.5-ci maddəsinə aşağıdakı kimi daxil edilmişdir:

| Yeni anlayış |
|---|
| 4.5. *Müvəqqəti vergi rejimi dedikdə, təbii fəlakətlərin, epidemiyaların, epizootiyaların, böyük ekoloji və başqa qəzaların, habelə qlobal iqtisadi mühitdə baş verən hadisələrin təsiri nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar bütün və ya bir qism sahibkarlıq subyektlərinə münasibətdə müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin müvəqqəti qaydası nəzərdə tutulur.* |

*Malların ixrac qeydi ilə satışı* anlayışı Vergi Məcəlləsinin 13.2.84-ci maddəsinə aşağıdakı kimi daxil edilmişdir:

| Yeni anlayış |
|---|
| 13.2.84. *malların ixrac qeydi ilə satışı – malların ixrac edilməsi məqsədilə istehsalçılar tərəfindən ixracatçılara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada satışı.* |

*ƏDV sıfır (0) dərəcəsi ilə tətbiq edilməsi üçün* Vergi Məcəlləsinin *165.1-ci maddəsinə aşağıdakı müddəa əlavə olunur:*

| |
|---|
| *165.1.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada malların ixrac qeydi ilə satışı.* |

*Vergi Məcəlləsinə koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimini əhatə edən* ***XVIII fəsil*** *əlavə edilib. Bu fəsilə aşağıdakı maddələr daxildir:*

- *Vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı ümumi müddəalar (maddə 222);*
- *Hesabatların verilməsi və cari vergi ödəmələri (maddə 223)*
- *Azadolmalar və güzəştlər (maddə 224)*

– *Sadələşdirilmiş verginin tətbiqi (maddə 225)*

*XVIII fəsil üzrə fəaliyyət sahələrinə aşağıdakı istiqamətlər aiddir:*

- Yerləşmə vasitələri hesab edilən mehmanxana (otel) və mehmanxana tipli digər obyektlərin fəaliyyəti;
- Turoperator və turagent fəaliyyəti;
- İctimai iaşə fəaliyyəti;
- Avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə) fəaliyyəti;
- Sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması fəaliyyəti;
- Sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti;
- İdman-sağlamlıq obyektlərinin fəaliyyəti;
- Hazırlıq (tədris) və ixtisasartıma kurslarının, məktəbdənkənar təhsil müəssisələri, psixoloji mərkəzlərin fəaliyyəti;
- Koronavirus pandemiyasının yayılması ilə bağlı əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi ilə məqsədilə fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə tam və ya qismən məhdudlaşdırılan digər fəaliyyət sahələri (dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından maliyyələşən digər dövlət orqanları (qurumları) istisna olmaqla).

➢ **Müxtəlif vergi rejimlərində çalışan vergi ödəyiciləri üçün vergi güzəştləri**

Koronavirus pandemiyasının bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə 2020-ci il 1 yanvar tarixindən etibarən 1 il müddətinə **əmlak və torpaq vergiləri** üzrə tam məbləğdə azadolma müəyyən edilib.

Koronavirus pandemiyasının təsirinə məruz qalan sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə seçdikləri vergitutma metodundan asılı olaraq, 2020-ci il 1 yanvar tarixindən etibarən bir il müddətinə bir sıra vergi güzəştlərinin verilməsi nəzərdə tutulur.

Mənfəət (gəlir) vergisi rejimində fəaliyyət göstərən ödəyicilər üzrə:

- Əldə edilən mənfəətin (gəlirin) **75 faizi** miqdarında vergi güzəştlərinin verilməsi müəyyən edilib.

Sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə və sərnişin daşımaları fəaliyyəti həyata keçirən vergi ödəyiciləri üzrə:

- Sadələşdirilmiş vergi məbləği üzrə **50 faizi** güzəşt verilməsi müəyyən edilib.

- **Koronavirus pandemiyasının təsir etdiyi sahələrdə fəaliyyət göstərən vergi ödəyiciləri üçün digər güzəştlər**

Koronavirus pandemiyasının mənfi təsir etdiyi iqtisadi fəaliyyət sahələri üzrə güzəştlər vergi ödəyicilərinin vergi və inzibati yükünün azaldılmasını təmin edir:

- fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcəsinin **14 faizdən 7 faizə** endirilməsi;
- 1 il müddətinə **cari vergi ödəmələrindən və cari vergi ödəmələri ilə bağlı arayışların** verilməsindən azad edilməsi, 2019-cu il üçün son verginin ödənilməsi müddətinin 1 sentyabr 2020-ci il tarixinədək uzadılması;
- mikro sahibkarlıq subyekti olmayan vergi ödəyicilərinin əvvəlki il üzrə hesablanmış **mənfəət (gəlir) və əmlak vergilərinin** ödənilməsi müddətinin cari ilin 1 sentyabr tarixinədək uzadılması;
- ödənilməmiş vergi, məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanması 2020-ci ilin 1 aprel tarixindən 2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınması;
- ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən 2020-ci il üzrə sadələşdirilmiş vergi metodunu seçmək hüququnun 20 aprel tarixindən 1 sentyabr tarixinədək uzadılması.

- **Mikro sahibkarlara vergi güzəştləri**

Koronavirus pandemiyasının təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq, **bütün mikro sahibkarlar üçün** də güzəştlər təmin edilib:

- **Sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin** verilməsi (verginin dərəcəsi 2 faizdən 1 faizə salınıb);
- 2020-ci ilin birinci və ikinci rübü üzrə **sadələşdirilmiş vergi hesabatının** və **mənfəət (gəlir) və əmlak vergiləri üzrə** hesabatların verilməsi və hesablanmış verginin büdcəyə ödənilməsinə cari ilin sentyabr ayının 1-dək vergi tətilinin verilməsi müəyyən edilib;
- müvafiq fəaliyyət növlərinin tam və ya qismən məhdudlaşdırıldığı müddət sabit qəbz almaqla fərdi qaydada məşğul olan vergi ödəyiciləri tərəfindən əldə etdikləri qəbzlərin qüvvədəolma müddətinə daxil edilməməsi və **ödənilmiş vergilərin növbəti dövrlərin ödəmələrinə aid edilməsi.**

- **Bütün sahibkarlara aid güzəştlər**

Bir sıra vergi güzəştləri və bütün sahibkarlıq subyektlərini əhatə edən azadolmalar müəyyən edilib:

- Epidemiyanın qarşısının alınması və əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyət nəzərə alınmadan gəlirdən çıxılması;
- Əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin ƏDV-dən müddətli azad edilməsi.

➢ **İdxal sahəsində vergi güzəştləri**

Müddətli olaraq aşağıdakılar üzrə ƏDV-dən azadolma müəyyən edilib:

- Koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində zəruri olan tibbi avadanlıqlar və aksesuarlar;
- Əhalinin ərzaq ehtiyaclarının təmin edilməsi ilə bağlı bəzi ərzaq növləri;
- Uşaqlar üçün qida məhsulları.

Məcəlləyə edilən dəyişikliklərlə ətraflı olaraq burada tanış ola bilərsiniz.

## Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" Qanununa dəyişiklik edildi

Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Sosial sığorta haqqında Qanununda dəyişiklik edilməsi haqqında 8 may 2020-ci il tarixli Qanun təsdiq edilmişdir.

Sosial sığorta yükünün azaldılması məqsədilə muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqqı dərəcələrinin aşağıdakı kimi dəyişdirilməsi müəyyən edilib:

| | |
|---|---|
| Məcburi dövlət sosial sığorta haqqının 1 aprel 2020-ci il tarixindən 1 yanvar 2021-ci il tarixinədək sahibkarlıq fəaliyyəti üzrə - minimum aylıq əməkhaqqının<br>*tikinti və ticarət sahələrində* **25 faizi**,<br>*digər sahələrdə* **15 faizi** miqdarında olmaqla hesablanması və<br>regionlar üzrə diferensial faiz əmsallarının tətbiqi | Bakı şəhərində 100 faizi;<br>Sumqayıt və Gəncə şəhərlərində 90 faizi,<br>digər şəhərlərdə 80 faizi,<br>rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzi olan inzibati ərazi vahidlərində və qəsəbələrdə 60 faizi,<br>kənd yerlərində 50 faizi miqdarında. |
| Məcburi dövlət sosial sığorta haqqının 1 yanvar 2021-ci il tarixindən 1 yanvar 2026-cı il tarixinədək minimum aylıq əməkhaqqının<br>*tikinti sahəsində* **50 faizi**,<br>*digər sahələrdə* **25 faizi** miqdarında olmaqla hesablanması və<br>regionlar üzrə diferensial faiz əmsallarının tətbiqi | Bakı şəhərində 100 faizi;<br>Sumqayıt və Gəncə şəhərlərində 90 faizi,<br>digər şəhərlərdə 80 faizi,<br>rayon inzibati ərazi vahidlərinin inzibati mərkəzi olan inzibati ərazi vahidlərində və qəsəbələrdə 60 faizi, |

| | |
|---|---|
| | kənd yerlərində 50 faizi miqdarında. |

**Misal 1:**

Hazırda minimum aylıq əməkhaqqı məbləği 250 manatdır. Bakı şəhərində ticarət fəaliyyəti ilə məşğul olan şəxslər hazırda 125 manat sosial sığorta haqqı ödəyirlər. Dəyişiklikdən sonra onlar 62,5 manat sosial sığorta ayırması həyata keçirəcək ki, bu da bütövlükdə 50 faiz azalma deməkdir.

**Misal 2:**

Bakı şəhərində digər fəaliyyətlə (tikinti və ticarətdən başqa) məşğul olan şəxslər hazırda 62,5 manat sosial sığorta haqqı ödəyirlər. Dəyişiklikdən sonra onlar 37,5 manat sosial sığorta ayırması həyata keçirəcək ki, bu da bütövlükdə 40 faiz azalma deməkdir.

*Fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün məcburi dövlət sosial sığorta haqqı aşağıdakı kimi müəyyən edilib:*

| **Fərdi fəaliyyət növləri** | **Minimum aylıq əməkhaqqının faizi (%) miqdarında** |
|---|---|
| toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət | **5%** |
| fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət | **5%** |
| çəkməçi, pinəçi | **3%** |
| saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri | **3%** |
| fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant) | **3%** |
| nəqqaşlıq emalatxanalarının fəaliyyəti | **3%** |
| fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər | **3%** |
| fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər | **3%** |
| Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada “Fərqlənmə nişanı” alan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri | **6%** |

Qeyd edilən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq sosial sığorta haqqının məbləği aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən olunur:

| Ərazi | Əmsallar |
|---|---|
| Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) | 2,0 |
| Abşeron rayonunda, Sumqayıt və Gəncə şəhərlərində | 1,5 |
| Digər şəhər və rayonlarda | 1,0 |

**Sabit qəbz və fərqlənmə nişanı ilə çalışanların sosial sığorta yükü çərçivəsində**

Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada "Fərqlənmə nişanı" alan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri minimum aylıq əməkhaqqının 6 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

**Kənd təsərrüfatında çalışanların sosial yükü çərçivəsində**

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II dərəcə əlilliyi olan şəxslər, həmçinin sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar istisna olmaqla, 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün məcburi dövlət sosial sığorta haqqı torpağın sahəsindən asılı olaraq, minimum aylıq əməkhaqqının aşağıda göstərilən dərəcələri üzrə hesablanır:

- 5 hektaradək olduqda - **2 faiz miqdarında;**
- 5 hektardan 10 hektaradək - **6 faiz miqdarında;**
- 10 hektardan yuxarı - **10 faiz miqdarında.**

**Vəkil, sərbəst mühasib və auditorların sosial sığorta yükünün optimallaşdırılması**

Vəkillər Kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər üçün məcburi dövlət sosial sığorta haqları ümumi gəlirin 20%-i həcmində ödənilirdi. Dəyişikliyə əsasən, Vəkillər Kollegiyasının üzvləri, sərbəst auditorlar və sərbəst mühasiblər üçün məcburi dövlət sosial sığorta haqları *əldə etdikləri gəlirlərdən xərclər çıxılmaqla 10%* miqdarında müəyyən edilmişdir (Sosial sığorta haqqında qanunun 14.5.5-ci maddəsi).

Qanuna edilən dəyişikliklərlə ətraflı olaraq burada tanış ola bilərsiniz.